**Azərbaycan Respublikası *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinin tabeliyində "Elektron Hökumət Təlim-Tədris Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, əhalinin, dövlət qulluqçularının və dövlət müəssisələrində çalışan işçilərin informasiya texnologiyalarından istifadə sahəsində hazırlıq səviyyələrinin artırılması və elektron idarəçilik üzrə bacarıqların inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar* Nazirliyinin tabeliyində payları dövlətə məxsus, özünümaliyyələşdirmə prinsipi əsasında fəaliyyət göstərən "Elektron Hökumət Təlim-Tədris Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılsın.

2. Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar* Nazirliyi bu qərarın 1-ci hissəsi ilə yaradılmış "Elektron Hökumət Təlim-Tədris Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin idarəetmə orqanının yaradılmasını qanunvericilikdə nəzərdə tutulmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi "Elektron Hökumət Təlim-Tədris Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsinin təsdiq edilməsi və dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin həyata keçirilməsini təmin etsin.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 17 dekabr 2015-ci il
№ 389

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 21 yanvar 2019-cu il tarixli **21** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 yanvar 2019-cu il, № 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 165)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 21 yanvar 2019-cu il tarixli **21** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 yanvar 2019-cu il, № 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 165)** ilə adında, 1-ci və 2-ci hissələrində "**Rabitə və Yüksək Texnologiyalar**" sözləri "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.